AZƏRBAYCAN TİBB JURNALI
AZERBAIJAN MEDICAL JOURNAL

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN SƏHİYYƏSİ

Müstəqil Azərbaycanın memarı, çağdaş Azərbaycan səhiyyəsinin inkişafında misilsiz xidmətləri olan görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-illik yubileyi münasibətilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi Dünya Azərbaycanlıları ilə yanaşı, ölkəmizin səhiyyə ictimaiyyəti tərəfindən də böyük rəğbətlə qarşılanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamının icrasından irəli gələn bütün tədbirlər Səhiyyə Nazirliyi tərəfindən 2023-cü il ərzində böyük ruh yüksəkliyi, sonsuz məhəbbət və rəğbət hissi ilə ardıcıl şəkildə həyata keçirilir.

Azərbaycan səhiyyəsi, XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində 35 ilə yaxın bir dövrdə bilavasitə ümummilli lider Heydər Əliyevin himayəsində olub, onun rəhbərliyi altında inkişaf edib, onun sayəsində indiki yüksək səviyyəyə çatıb. 1969-cu ilin iyul ayında Ulu Öndər Azərbaycanda dövlət rəhbərliyinə gəldikdən sonra Azərbaycanın bütün sahələrində olduğu kimi səhiyyə sahəsində də əsaslı dönüş yarandı. Bir vaxtlar Azərbaycan səhiyyəsinin möhkəm bünövrəsini qoyan görkəmli dövlət və elm xadimi, əməkdar həkim, professor Əziz Əliyevin Azərbaycanın səhiyyə sahəsində etmək istədiyi, lakin müəyyən səbəblərdən tamamlanmayan işləri ümummilli lider və onun həyat yoldaşı dünya şöhrətli oftlamoloq alim və səhiyyə qurucusu, akademik Zərifə xanım Əliyeva tərəfindən yüksək səviyyədə həyata keçirilmişdir. Ulu Öndər XX əsrin 70-80-ci illərində, eləcə də 1991-ci ildən sonrakı müstəqillik illərində Azərbaycanın səhiyyə sistemində ölçüyəgəlməz islahatlar aparmış, o zamankı Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Milli Onkologiya Mərkəzi, K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu, B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu, akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu, Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, akademik V.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu, akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Azərbaycan Dövlət Tibb İnstitutu, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Elmi Tədqiqat Tibbi Bərpa İnstitutu, eləcə də digər səhiyyə və tibb təhsili müəssisələri həm SSRİ dövründə Sovetlər İttifaqında, həm də Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etdikdən sonrakı illərdə beynəlxalq miqyasda yenidən tanınmağa, nüfuz qazanmağa başlamışdır.

Ümummilli lider Heydər Əliyevin XX əsrin 80-ci illərinin əvvəllərində Moskvada SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi onun Azərbaycan səhiyyəsinə, Azərbaycan tibb elminə, tibb təhsili sistemlərinə olan nəzarətini, diqqətini nəinki azaltmamış, əksinə daha da artırmışdı. O, Moskvada çalışdığı illərdə SSRİ-nin səhiyyə sahəsinə də nəzarət edirdi və Sovetlər İttifaqının yüksək rütbəli tibb alimləri, səhiyyə işçiləri ilə tez-tez görüşlər keçirir, səhiyyədə olan problemlərin müzakirəsini aparır, bu problemlərdən irəli gələn məsələlərin çıxış yollarını peşəkarcasına təkcə SSRİ miqyasında yox, bütövlükdə beynəlxalq aləmdə də göstərir, təcəssüm etdirirdi.



Ulu Öndər 1998-ci il sentyabr ayının 28-də Azərbaycan Tibb Unversitetində keçirilən tədbirdə çıxış edərkən bir məqama toxunaraq demişdir: «Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra Sovetlər İttifaqının, SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm… Mən o vaxt Sovetlər İttifaqının Moskvada yerləşən ən böyük, ən mötəbər tibb ocaqları, müəssisələri ilə yaxından tanış idim, onların yaranmasında, inkişaf etməsində xidmətlər göstərirdim. Mənim o vaxt həm Onkoloji Mərkəzin, həm Kardioloji Mərkəzin, həm Ürək Cərrahiyyəsi Mərkəzinin, həm Oftalmoloji Mərkəzlərin və başqalarının yaranmasında, inkişaf etdirilməsində, onların maddi-texniki bazasının yaradılmasında çox səylərim olmuşdur. Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, o vaxt SSRİ Tibb Elmləri Akademiyasının 40-illik yubileyində Sovet İttifaqının rəhbərliyi adından iştirak etdim. Mən bir də bunları edərək o vaxt SSRİ dövləti tərkibində Azərbaycanın səhiyyəsinə marağı, qayğını daha da artırırdım. Moskvada yerləşən böyük tibb elmi mərkəzlərinin diqqətini Azərbaycana cəlb edirdim və Azərbaycana yardım etməyə çalışırdım».

O vaxtlar SSRİ səhiyyə sisteminin və dünya tibb elminin görkəmli nümayəndələrindən olan məşhur onkoloq alim akademik N.N.Bloxin çıxışlarından birində demişdir: "Heydər Əliyev səhiyyənin problemlərini və onların həlli yollarını ən titullu səhiyyə mütəxəssislərindən də gözəl bilir və elə bu səbəbdən, eləcə də digər səbəblərdən də ona böyük hörmət və ehtiramla yanaşıram".

Heydər Əliyev Sovetlər İttifaqı miqyasında, eləcə də beynəlxalq aləmdə səhiyyənin və tibb elminin bütün sahələrində fəaliyyət göstərən aparıcı mütəxəssislərlə sıx əlaqələr saxlayır, onların diqqətini Azərbaycana cəlb edir, bununla da Azərbaycanın səhiyyə sisteminin inkişafına yeni töhfələr verirdi.

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində erməni təcavüzkarları Azərbaycan torpaqlarının 20 faizini işğal etdikdən sonra bütün sahələrdə olduğu kimi ölkəmizin səhiyyə sistemində də tənəzzül yaranmışdı. İllərlə Ulu Öndər tərəfindən çətinliklə yaradılanlar, baxımsızlıq üzündən asanlıqla dağıdılır, maddi-texniki bazalar yararsız hala düşürdü. Xoşbəxtlikdən bu uzun sürmədi və 1993-cü il iyunun 15-də ümummilli liderin ölkəmizdə yenidən hakimiyyətə qayıdışı pərakəndəliyin, dağıntıların qarşısını ala bildi. Heydər Əliyev Azərbaycanın özü ilə birlikdə onun səhiyyə sisteminin də xilaskarına çevrildi. Səhiyyə sistemini yenidən canlandırmaq üçün Azərbaycan iqtisadiyyatının dirçəldilməsinə böyük ehtiyac yaranmışdı. Heydər Əliyevin o vaxtlar ölkəmizdəki siyasi-iqtisadi vəziyyəti yaxşılaşdırmaq uğrunda yerinə yetirdiyi əvəzsiz xidmətlər tarixin səhifələrinə qızıl hərflərlə həkk olundu. 1994-cü il mayın 14-də imzalanan atəşkəs rejimi və həmin ilin sentyabr ayının 20-də imzalanan Bakı-Tbilisi-Ceyhan neft-boru kəməri müqaviləsi «Əsrin müqaviləsi» kimi tarixə düşdü. Bundan sonra müstəqil Azərbaycan Respublikasında həm siyasi, həm də iqtisadi durum yüksələn xətt üzrə irəliləməyə başladı. Bu, dərhal ölkəmizin bütün digər sahələrində olduğu kimi bütövlükdə Azərbaycan səhiyyə sisteminin, tibb elmi və tibb təhsili sistemlərinin hərtərəfli inkişafı və tərəqqisində, maddi-texniki bazaların möhkəmləndirilməsində də özünü büruzə verdi.

Dünya şöhrətli siyasətçi kimi tanınan Ulu Öndərin şəxsi nüfuzu sayəsində Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əlaqələr yarandı. Bunun nəticəsində ölkəmizdə baş qaldıran bir sıra infeksion xəstəliklərin daha geniş ərazilərə yayılmaması üçün qabaqlayıcı tədbirlər görüldü. Yenidoğulmuşlarda və erkən uşaqlıq yaşı dövrünə aid uşaqlar arasında artmaqda olan uşaq ölümünün qarşısı alındı. Peyvənd çatışmazlığına son qoyuldu.

Ümummilli lider XX əsrin 90-cı illərinin ortalarında Rusiya Onkoloji Elmi Mərkəzinin baş direktoru akademik N.N.Trapeznikovu Bakıya dəvət etmiş, Azərbaycan Milli Onkologiya Mərkəzinin baş direktoru akademik C.Ə.Əliyevin və Azərbaycan Tibb Universitetinin rektoru akademik Ə.T.Əmiraslanovun birgə iştirakı ilə Azərbaycanda onkoloji xəstəliklərin profilaktikası, müayinə və müalicəsi problemlərini müzakirə etmiş, bu sahənin və səhiyyənin digər sahələrinin hərtərəfli inkişafına xüsusi diqqət yetirmişdir.

XX əsrin sonu XXI əsrin əvvəllərində ümummilli liderin ölkəmizin səhiyyə sisteminə diqqət və qayğısı, əhalinin sağlamlığını hər şeydən üstün tutması nəticəsində Azərbaycanın ən ucqar regionlarında belə müasir tibb ocaqları, diaqnostika və sağlamlıq mərkəzləri yaradılmışdır.

Hazırda ölkəmizin hər yerində, eləcə də onun hüdudlarından kənarda müasir dövr Azərbaycan səhiyyəsinin qurucusu Ulu Öndər Heydər Əliyevin və görkəmli oftalmoloq alim akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100-illik yubileyləri geniş şəkildə qeyd edilir. Ölkəmizdə və onun hüdudlarından kənarda da böyük ehtiramla təşkil olunan bu tədbirlər “Heydər Əliyev İli”nin möhtəşəm akkordlarının dəyərli incilərinə çevrilib.

Dahi Heydər Əliyev irsinin bitib tükənməz zənginlikləri daim yollarımıza işıq saçır, bizi yeni uğurların təntənəsinə aparır. Bu irsin təsir dairəsi hüdudsuzdur və Heydər Əliyev irsi bütün sahələrdə olduğu kimi, Azərbaycan səhiyyə sisteminin də yeni nailiyyətlərinin istiqamətvericisinə çevrilmişdir.

Ümummilli liderin bəşəri böyüklüyü daim yaşayır və yaşayacaqdır.

**TEYMUR MUSAYEV**
***Azərbaycan Respublikasının***
***Səhiyyə naziri***